*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*Special Issue: Education, Environment, and Sustainable Development – Multidimensional Approaches and Scientific Research (15 October 2025)*
*Derleme Makalesi | Review Article*
*Geliş tarihi |Received:05.06.2025*
*Kabul tarihi |Accepted:10.10.2025*
*Yayın tarihi |Published:15.10.2025*

**Shahla Suleymanova**

*https://orcid.org/0000-0002-2499-7197*
*PhD in Pedagogy. Lecturer at the Department of Pedagogy and Psychology, Nakhchivan Teachers' Institute. Azerbaijan, shahla.suleymanova@bk.ru*

*Atıf Künyesi | Citation Info*

Suleymanova, S. (2025). "Azərbaycan Dili" Fənninin Tədrisində Bədii İstedadlı Uşaqların Aşkara Çıxarılması Metodikası. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (Special Issue: *Education, Environment, and Sustainable Development – Multidimensional Approaches and Scientific Research*), 36-45.

# "Azərbaycan Dili" Fənninin Tədrisində Bədii İstedadlı Uşaqların Aşkara Çıxarılması Metodikası

**Xülasə**

*Məqalədə bədii istedadlı uşaqların xüsusiyyətləri və onların qabiliyyətlərinin aşkara çıxarılması istiqamətində "Azərbaycan dili" fənninin metodik imkanları araşdırılmışdır. Fənnin tədrisi zamanı yaradıcı yanaşmaların, rollu və didaktik oyunların tətbiqi bədii istedadı olan şagirdlərin vaxtında müəyyən edilməsinə və inkişafına şərait yaradır. Oyunların ssenariləri, musiqi və təsviri incəsənət elementlərinin seçimi, şagirdlərin fərdi qabiliyyətlərinə əsaslanan rol bölgüsü prosesin effektivliyini artırır. Bu yanaşma estetik tərbiyə ilə yanaşı, əxlaqi, mənəvi, əmək və sosial dəyərlərin formalaşmasına da töhfə verir. Məqalədə həmçinin ibtidai sinif mərhələsində uşaqların yaradıcılıq potensialının üzə çıxarılmasının gələcəkdə istedadlı və hərtərəfli şəxsiyyətlərin formalaşmasında əhəmiyyətli rolu olduğu vurğulanır.*

***Açar sözlər:*** *Azərbaycan Dili, Şagird, Bədii İstedad, Yaradıcılıq, Didaktik Oyun*

# The Methodology for Identifying Artistically Talented Students in the Teaching of the Azerbaijani Language

**Abstract**

*The article explores the characteristics of artistically gifted students and examines the methodological possibilities of the Azerbaijani language subject in identifying their talents. The use of creative approaches, role-playing, and didactic games during the teaching process facilitates the timely recognition and development of students with artistic abilities. The careful design of game scenarios, the selection of music and visual art elements, and the distribution of roles based on students' individual capacities enhance the effectiveness of the process. This approach contributes not only to the formation of aesthetic education but also to the development of moral, ethical, social, and labor values. The study emphasizes that revealing the creative potential of children at the primary school stage plays an important role in fostering talented and well-rounded personalities in the future.*

***Keywords:*** *Azerbaijani Language, Student, Artistic Talent, Creativity, Didactic Game, Aesthetic Education*

## Giriş

Müasir dövrdə təhsilin qarşısında duran vəzifələrdən biri də istedadlı şagirdlərin aşkara çıxarılması, onların bu istiqamətdə qabiliyyətlərinin inkişafıdır. Şagirdyönümlü təlim metodunu nəzərə alsaq, tədris prosesində şagirdlərin bacarıqlarının inkişafı üçün müəyyən

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.***

istiqamətlərin formalaşdırılması əsas məsələlərdən olmalıdır. Şagirdyönümlülük təlim metodunda şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdin maraq və tələbatlarının öyrənilməsi və təmin edilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir. Təlim prosesi şəxsiyyətin formalaşdırılmasına istiqamətləndirilir, şagirdlərin müstəqil həyata hazırlanmasına və peşə seçiminə köməklik göstərir.

Kiçikyaşlı məktəblilərin ibtidai sinifdə təlimə marağının artırılması, onların müstəqil fəaliyyətə alışdırılması, şəxsiyyətyönümlü inkişafının təmin edilməsi, habelə onların milli-mənəvi və ümumbəşəri dəyərlərlə tanış edilməsi və bütövlükdə geniş elmi dünyagörüşə yiyələnmələri üçün məhz estetik tərbiyələrinin inkişafına nail olmaq əsasdır. Bu zaman estetik tərbiyənin vəzifələrinin yerinə yetirilməsi məqsədilə bədii yaradıcılıq qabiliyyəti olan uşaqların, əsasən də didaktik oyunlar vasitəsilə istedadlarının inkişafına nail olmaq mümkündür. Didaktik oyunlar tədris məqsədli oyunlardır və uşaqlara yeni biliklərlə yanaşı, bacarıqların inkişafı üçün müəyyən şərait yaradır. Həmçinin, bu oyunlar istedadlı uşaqların potensialının erkən yaşlarda müəyyən edilməsində, onların bədii yaradıcılıq qabiliyyətlərinin inkişafında əsas vasitələrdən biridir.

**Estetik tərbiyə və psixoloji–pedaqoji xüsusiyyətləri**

Estetik tərbiyə insanın zövq dünyasının, gözəllik duyumunun və yaradıcılıq qabiliyyətlərinin formalaşmasında mühüm rol oynayır. Təlim prosesində estetik tərbiyə şagirdin ətraf aləmi daha dərin hiss etməsinə, hadisə və predmetlərdəki gözəlliyi görüb dəyərləndirməsinə şərait yaradır. Bu tərbiyə növü, həmçinin uşağın emosional və intellektual inkişafını tarazlaşdıraraq şəxsiyyətin harmonik formalaşmasına kömək edir. Psixoloji və pedaqoji baxımdan estetik tərbiyə uşaqlarda yaradıcı təfəkkürün, zövqün və davranış mədəniyyətinin formalaşmasını dəstəkləyir. Beləliklə, estetik tərbiyə təkcə bədii qabiliyyətlərin deyil, ümumilikdə insani və mənəvi dəyərlərin inkişafına xidmət edən mühüm təlim istiqamətidir.

Sənət fəlsəfəsi bölməsində şagirdlərə çox çatdırıldığı düşünülən qazanclar sırasıyla, sənət fəlsəfəsinin əsas anlayışı olaraq gözəllik anlayışını tanıyır (Biçer, 2017). Estetik tərbiyənin vəzifələri ümumi olaraq bədii yaradıcılıq fəaliyyəti qaydalarının formalaşdırılması, istedadlı uşaqların üzə çıxarılıb himayə edilməsi kimi göstərilmişdir (Əliyev, 2017). Estetik tərbiyə vasitəsilə insan yalnız "Həyatı gözəllik qanunları üzrə öyrənir, həm də onun əqli, əxlaq, fiziki cəhətdən inkişafı və kamilləşməsi təmin olunur" (Sadıqov, 2009, p. 492). Deməli, bədii yaradıcılıq qabiliyyəti olan, bədii istedadlı uşaqların aşkara çıxarılması, əsasən

sinif–dərs sistemində fənlərin imkanlarından istifadə estetik tərbiyə cəhətdən də vəzifənin yerinə yetirilməsidir.

**Bədii yaradıcılığın əsas göstəriciləri**

Bunun üçün bədii yaradıcılığın əsas xüsusiyyətlərini bilmək lazımdır. Belə ki, şəxsin müəyyən məkan və zaman çərçivəsində bir qayda olaraq, bədii əsər şəklində konkret nəticəyə malik olan və müəllif tərəfindən həyata keçirilən fəaliyyətlər, digər fəaliyyətlərin nəticəsi olan yaradıcılıq, bədii yaradıcılığın xüsusiyyətləridir. Həm də aktiv və şüurlu prosesdir, lakin eyni zamanda nisbətən özünü təşkil edir, yəni rəssam heç də həmişə onun özündə bədii obrazın (idrakın) necə yarandığını və bunun məhz nə vaxt baş verəcəyini bilmir, oynaq təbiətə malikdir. Bu, bədii istedadlı insanda fiziki, emosional və intellektual qüvvələrinin məcmusu və müəyyən təcrübə əsasında bədii konsepsiyanın xüsusi şəkildə qurulduğu və müəyyən edildiyi vəziyyətin xüsusi verilmiş xarakteri ilə təmsil olunur.

**Bədii istedadın aşkara çıxarılmasında müəllimin rolu və peşəkarlığı**

İstənilən bədii yaradıcılıq bir növ "ilhamı" təmsil edir. Sənətkar sənət əsərində onun yaradıcılığının mənalı özəyini təşkil edənə münasibət bildirir. İstənilən sənət əsəri, hətta kütləvi qavrayışı (teatr tamaşası və ya bədii film) əhatə etsə də, həmişə hər bir tamaşaçının ruhunda fərdi reaksiya üçün nəzərdə tutulub. Müəllim tədris prosesini yuxarıdakıları nəzərə alaraq qursa, mövzuların seçilməsinə düzgün diqqət etsə, şagirddə "ilhamı" yaradacaq.

Hadisələri realistik şəkildə düşünməyi öyrədən sənət, fərdin ruhsal məmnuniyyətə nail olmasına və sənətin yaratdığı emosional rahatlıqla çətinlikləri aşmasına imkan verir. Buna görə də sənət, intuisiyaya əsaslanan bir düşüncə xətti olaraq, ağıl və emosiyalar arasındakı münaqişəni tarazlayır və şəxsin daha sağlam qərarlar qəbul etməsinə istiqamət verir. Cəmiyyətin dəyərləndirmələri, şəxsi qavrayışlar və gözləntilər sənət tərəfindən formalaşır və sənət, cəmiyyətlərin mədəniyyət yığmalarının davam etdirilməsində mühüm rol oynayır (Demirel, 2019). Deməli, şagirdin bədii istedadının aşkara çıxarılması və formalaşması onda mühüm dəyişikliklərə gətirib çıxarır. Bunu aşağıdakı kimi ifadə edə bilərik:

• Özünü tanımağa kömək edir.

• Təxəyyül dünyasını inkişaf etdirir.

• Duyğularını sərbəst və aydın şəkildə ifadə etməyə imkan yaradır.

• Fərqli baxış bucaqlarını formalaşdırmağa şərait yaradır.

• Bədən, ağıl və ruh sağlamlığına müsbət təsir göstərir.

• Müsbət özünü dərk etməyi təşviq edir.

• Özünə inam hissini gücləndirir.

• Sosial bacarıqları və əməkdaşlıq vərdişlərini inkişaf etdirir.

• Emosional zəkanı və empatiya qabiliyyətini zənginləşdirir.

• Tədris nailiyyətlərinə və məktəb uğurlarına müsbət təsir göstərir.

•Güclü və balanslı şəxsiyyətin formalaşmasına kömək edir.

Həmçinin ailədə valideynlər tərəfindən də bu prosesə köməklik göstərilsə, daha uğurlu nəticə alınar. Onsuz da valideyn hər anında övladına ətrafdakı gözəlliyi duymağı öyrədir. Məsələn, körpəsinin çarpayısını küləkdə tərpənən yarpaqları görsün deyə yerləşdirən ana uşağını gözlərindən istifadə etməyə təşviq edir. Ata övladına bir yarpaq verir və onu baxmağa, toxunmağa, qoxlamağa, yarpağa diqqətlə baxmağa və onun detallarını görməyə istiqamətləndirir. Bu onu göstərir ki, şagird məktəbə gələndə kortəbii ya da şüurlu olaraq da estetik tərbiyəyə cəlb olunur. Sonrakı təlim müddətində müəllim bunu davam etdirməlidir.

İbtidai sinifdə "Azərbaycan dili" fənninin bu baxımdan imkanları genişdir. Bu fənnin tədrisində oyunlarla şagirdlərin bədii istedadını aşkara çıxarmaq, inkişaf etdirmək mümkündür. Keçmişdən bu yana bir çox təhsil mütəxəssisinin vurğuladığı kimi, tədris fəaliyyətlərinin təşkilində oyun hərəkətinin təbiətə uyğun olması, eləcə də sosial, tarixi və mədəni kontekstə uyğun olmasının nəzərə alınmasının, təhsilin məqsədlərinə çatmaqda asanlaşdırıcı bir rol oynayacağı yenidən ifadə edilə bilər. Bu rolu nəzərə alaraq təhsildə oyunun istifadə edilməsi, şagirdlərin maraqlarının və həvəslərinin oyadılmasını və buna görə də kəşf etmə xüsusiyyətlərinin ortaya çıxmasını mümkün edir (İnan Kaya, 2018). Müəllimlərin əksəriyyəti tərəfindən təhsil oyunlarının öyrənmədə davamlılıq təmin etməsi və öyrənməni əyləncəli hala gətirməsi baxımından üstünlük olduğu müəyyən edilmişdir (Demirtaş, Çalık, Sarışık, & Sarıışık, 2021).

**"Azərbaycan dili" Dərslərində Bədii İstedadın Aşkara Çıxarılması**

"Azərbaycan dili" dərslərində süjetli-rollu oyunları savad təlimi dövründən başlamağı məqsədəuyğun hesab etmək olar. Çünki savad təlimi dövründə təşkil olunan kiçikhəcmli süjetli-rollu oyunları "Bizim əlifbamız", "Səslərin yarışı", "Səslər və hərflər", "Hərflərin rəqsi", "Səslərin və hərflərin mahnısı", "Bayraqlarla oyun", "Balaca sürücü", "Yol hərəkəti qaydaları" adları altında təşkil etmək daha faydalıdır. Məsələn, "Səslər və hərflər" adlı kiçikhəcmli musiqili, süjetli, rollu oyunlar təşkil edərkən savad təlimi dövründə uşaqlara öyrədilən bütün hərflər orfoqrafik qaydalara uyğun olaraq irihəcmli trafaret şəklində hazırlanaraq uşaqların boyunlarına asılmaq üçün müxtəlif rənglərlə bəzədilir və rəngli iplərlə təmin edilir. Oyuna 10 uşaq cəlb olunur. Kiçikhəcmli süjetli-rollu oyunun xarakterinə uyğun olaraq uşaqlar iki dəstəyə ayrılırlar. Hər dəstənin rəhbərinin əlində "Mən hərflərin rəhbəriyəm", ikinci dəstənin rəhbərinin əlində isə "Mən səslərin rəhbəriyəm" yazılmış plakatlar vardır. Hərflərin rəhbəri öz

komandasına deyir: - Mənim komandam, özünüzü təqdim edin! Səslərin rəhbəri də komandasına özlərini təqdim etməyi tapşırır. Birinci dəstənin birinci sırasında dayanan şagirdin boynundan “A”, ikinci sırada dayanan şagirdin boynunda “Z”, üçüncü sırada dayanan şagirdin boynunda “Ə”, dördüncü sırada dayanan şagirdin boynunda “R”, beşinci sırada dayanan şagirdin boynunda “B” hərfi yazılan plakatlar vardır. İkinci dəstənin isə birinci sırasında dayanan şagirdin boynunda “A” hərfi, ikinci sırada dayanan şagirdin boynunda “Y”, üçüncü sırada dayanan şagirdin boynunda “C”, dördüncü sırada dayanan şagirdin boynunda “A”, beşinci sırada dayanan şagirdin boynunda isə “N” hərfi asılmış plakatlar var.

Müəllim boynunda “A” hərfi yazılmış şagirdə müraciət edir: - Sən “A” hərfinə aid sözlər deyə bilərsənmi? Boynunda “A” hərfi asılmış şagird: - Bəli müəllim, Ağdərə, Ağdam. Müəllim: - Afərin! Azərbaycan Silahlı Qüvvələri bizim qədim məkanlarımızdan və gözəl güşələrimizdən olan, Qarabağın gözü sayılan Ağdərə uğrunda döyüşlərdə qalib gəlmiş və Ağdərəmizi azad etmişlər.

Müəllim boynunda “Z” hərfi yazılmış şagirdə müraciət edərək:

- “Z” hərfinə dair sözlərdən nümunə gətirməyi xahiş edir.

Boynunda “Z” hərfi olan şagird: - Zərifə, Zəfər.

Müəllim:

- Afərin! Zərifə böyük öndərimizin sədaqətli həyat yoldaşının və möhtərəm prezidentimizin anasının adıdır.

“Zəfər” sözü də bu gün bizim ən sevimli sözlərimizdəndir. Çünki işğal altında olan torpaqlarımızın azadlığı uğrunda 44 günlük müharibədə qazandığımız qələbələr bizim zəfərimizdir. Ona görə biz möhtərəm prezidentimiz İlham Əliyevə “Zəfər Prezidenti” deyirik.

Müəllim boynunda “Ə” hərfi yazılmış şagirdə müraciət edərək:

- “Ə” hərfinə dair sözlərdən nümunə gətirməyi tapşırır. Boynunda “Ə” hərfi olan şagird:

- Əliyev Əlirza.

Müəllim:

- Uşaqlar, Əliyev soyadı və Əlirza adı da bizim üçün çox doğmadır. Çünki ulu öndərimizin və möhtərəm prezidentimizin soyadları Əliyevdir. Heydər babamızın atasının adı isə Əlirzadır.

Müəllim boynunda “R” hərfi yazılmış şagirdə müraciət edərək:

- “R” hərfinə dair sözlərdən nümunə gətirməyi tapşırır.

Boynunda “R” hərfi olan şagird: - Respublika, rəhbər. Müəllim: - Doğrudur, respublika deyəndə biz müstəqil ölkəmizi, rəhbər deyəndə isə möhtərəm prezidentimizi nəzərdə tuturuq.

Müəllim boynunda “B” hərfi yazılmış şagirdə müraciət edərək: - İndi isə “B” hərfinə dair sözləri təqdim etmək lazımdır.

Boynunda “B” hərfi olan şagird:

- Babək, Bamsı Beyrək.

Müəllim:

- Əhsən! Əhsən sənə! Bizə Babək və Bamsı Beyrək adlarını xatırlatdığın üçün sənə təşəkkür edirik. Çünki həm Babək, həm də Bamsı Beyrək Azərbaycan xalqının və Türk dünyasının igid oğullarıdır. 44 günlük zəfər müharibəmizdə Babək və Bamsı Beyrək tinətli igid oğullarımız erməni faşistlərinə qan uddurmuşdur. 44 günlük müharibədə bizə qələbə qazandıran əsgərlərimizin sırasında kiçik gizir Beyrək Feyzullayevin də adı vardır. Cəbrayıl uğrunda gedən döyüşlərdə Beyrək Feyzullayev qəhrəmancasına həlak olmuş və şəhidlik zirvəsinə yüksəlmişdir.

Müəllim:

- Yenə “A” hərfinə dair sözlər demək lazımdır.

Boynunda “A” hərfi olan şagird: - Atatürk, abidə.

Müəllim:

- Uşaqlar, Atatürk də Türkiyə Cümhuriyyətinin ulu öndəri hesab olunur. Onun əsl adı Mustafa Kamal, atasının adı isə Əlirzadır. Görürsünüzmü, Heydər babamızın atasının adı ilə Mustafa Kamalın atasının adında oxşarlıq vardır. Türk dünyasının bu iki öndərinin hər ikisinin gözlərinin rəngi yaşıl olmuşdur. Hər ikisi öz ölkələrini parçalanmaqdan xilas etmişlər. Belə oxşarlıqlar nadir hallarda olan bənzəmələr kimi dəyərləndirilir. “Abidə” sözünü də yaxşı yadımıza saldınız. Abidə deyəndə erməni faşistlərinin Qarabağ torpağında məhv etdikləri yüzlərlə abidələrimiz yada düşür. Onların içərisində məscidlərimiz, türbələrimiz, qalalarımız, körpülərimiz və bir sıra mədəniyyət və incəsənət abidələrimizlə yanaşı, tarixi diyarşünaslıq abidələrimiz də vardır.

Müəllim:

- İndi isə “Y” hərfinə dair sözlər demək lazımdır.

Boynunda “Y” hərfi olan şagird:

- Yusif, yurdumuz.

Müəllim: - İslam dəyərlərinə görə Yusif peyğəmbər gözəlliklər peyğəmbəridir. Azərbaycan xalqı Yusif adını çox sevərək övladlarına bu adı qoyurlar. Yusif Vəzir Çəmənzəmənli bizim Azərbaycan xalqının görkəmli yazıçısı, Yusif Məmmədəliyev isə görkəmli kimyaçı alimimiz kimi tariximizin qızıl səhifəsini bəzəyirlər. Yusif Məmmədəliyevin kəşfləri içərisində yeni neft məhsulları İkinci Dünya müharibəsinin qələbəsində böyük rol oynamışdır. Böyük öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində yurdumuz günü-gündən çiçəklənmiş, gözəlləşmişdir.

Müəllim:

- İndi isə "C" hərfinə dair sözlər demək lazımdır.

Boynunda "C" hərfi olan şagird: - Cavanşir, cəsur.

Müəllim:

- Cavanşir də Babək kimi xalqımızın azadlığı uğrunda mübarizə aparmışdır. Cavanşir kimi cəsur əsgərlərimiz Şuşada əlbəyaxa döyüşlərdə erməni faşistlərini məğlub edərək Şuşamızı özümüzə qaytarmışlar.

Müəllim:

- Yenə də "A" hərfinə dair sözlər demək lazımdır.

Boynunda "A" hərfi olan şagird: - Müəllim, mən Naxçıvana aid olan 2 söz demək istəyirəm: biri Ağqaya, ikincisi isə Ağrıdır.

Müəllim:

- Bu sözlər də bir anlayış olaraq bizim tariximizə qovuşmuşdur. "Ağqaya" sözü coğrafi termindir. Babək rayonunun ərazisində yerləşən dağın adıdır. Ağqaya dağı Dərələyəz silsiləsinin yamacındadır. Cəhri çayının sağ sahilindədir. Dərələyəz də Naxçıvan kimi bizim qədim əyalətlərdən biri olmuşdur. Lakin mənfur ermənilər rusların himayəçiliyi ilə onu da Azərbaycandan qoparmışlar. Ağrı adı da dağ adıdır. Azərbaycanın ən qədim dağlarından biridir. Bir hissəsi Ermənistan ərazisindən keçdiyi üçün ermənilər həmin Ağrı adını Ani kimi dəyişərək coğrafi xəritələrinə daxil etmişlər.

Müəllim: - İndi isə sonuncu oyunçumuz, yəni "N" hərfini yaxasında daşıyan şagirdimiz daşıdığı hərfə uyğun sözlər desin.

Boynunda "N" hərfi olan şagird:

- Nəbi yurdu, Narın qala.

Müəllim:

- Bu sözləri də yaxşı fikirləşib tapmışsınız. Nəbi yurdu Naxçıvanın ən qədim yurd yerlərindəndir. Yəni, Ordubad rayonunun ərazisində Zəngəzur silsiləsinin Gəmiqaya yamacında yerləşir. Naxçıvançay, Əlincəçay, Gilançay vadilərində yaşayan əkinçiliklə və

maldarlıqla məşğul olan tayfaların yaylaq yeri olmuşdur. Zəngəzur silsiləsi deyəndə qeyd etmək lazımdır ki, ermənilər Zəngəzur əyalətinin də bir çox kəndlərini işğal etmişlər. Ona görə Naxçıvanın Zəngəzur dəhlizindən keçən yolu hələ də ermənilərin əlindədir. 44 günlük zəfər döyüşümüzdən sonra bağlanılan müqaviləyə görə onlar bu dəhlizi Azərbaycana təhvil verməlidirlər. Sağlıq olsun, bu dəhliz açılandan sonra biz Naxçıvandan digər ünvanlara öz avtomobillərimizlə və qatarla gedib-gələ biləcəyik. Narınqala da Naxçıvan ərazisindədir. Ən qədim tarixə malik olan yurd yeridir. Təxminən, XVII əsrin ortalarında mövcud olmuşdur. Səfəvi-Osmanlı müharibələri zamanı çoxlu dağıntılara məruz qaldığı üçün öz möhtəşəmliyini itirmişdir.

Monitorda “Ana” mahnısının birinci bəndi səslənir.

Müəllim:

- Əziz uşaqlar, Cahangir Cahangirovun bəstələdiyi, görkəmli sənətkarımız Rəşid Behbudovun ifasında eşitdiyiniz bu mahnının sözlərinə diqqət edək: “Gözümün nuru, canım ana, Böyütdün sən məni yana-yana.” Mahnının bu misralarını oyun iştirakçıları həzin və mehriban səslə təkrar edirlər. Sonra mahnının digər misralarını müəllim xüsusi şövq ilə təkrar edir. “Ana” mahnısındakı ürəyəyatımlı misraları zövq ilə deyən müəllimin bu hərəkətlərindən ruhlanan şagirdlər həmin misraları xorla təkrar edirlər. Mahnı sona çatandan sonra müəllim uşaqlardan soruşur: - Mahnının sözlərinin birinci iki misrasında neçə “a” səsi var? Uşaqlar xorla deyir:

– 4 “a” səsi var.

Müəllim: - Elə isə mahnını bir də səsləndirək və mahnıda neçə səsin olduğunu bir də aydınlaşdıraq.

Uşaqlar mahnıdakı “a” səslərinin cəmini xorla söyləyirlər. Müəllim onları rəğbətləndirir. Səslərin komandasının rəhbəri irəli çıxaraq deyir: - Bizim hərflərin komandasına belə bir sualımız var:

- Müəllimimizin səsləndirdiyi və monitorda gördüyünüz sözlərdə neçə səs var? Səslərin komandası xorla cavab verir:

- On dörd səs. Müəllim “Afərin” deyərək növbəti sualını verir:

- Deyə bilərsinizmi, nə üçün hər ikisində on dörd səs var? Səslərin komandası (xorla) cavab verərək deyir:

- Ona görə ki, hər sözdə və cümlədə neçə hərf varsa, bir o qədər səs vardır. Müəllim hər iki komandaya müraciət edir:

- Söylədik ki, Azərbaycan sözünün birinci səsi də, birinci hərfi də “A” hərfidir. Bizim himnimizin ilk sözü “Azərbaycan”, ilk hərfi və ilk səsi də “A” hərfi və səsidir. Ona görə gəlin birlikdə “Azərbaycan”ın himnini oxuyaq. Didaktik oyunun bütün iştirakçıları xorla Azərbaycan himnini birlikdə oxuyurlar. Didaktik oyun sona yetir.

Göründüyü kimi, ibtidai siniflər üçün nəzərdə tutulan oyunlar zamanı istifadə edilən və tətbiq olunan didaktik materiallar şagirdlərin bilik səviyyəsinin yüksəldilməsinə köməklik göstərirsə, oyunda istifadə olunan musiqi nümunələri şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərini formalaşdırmış olur. Yəni “Azərbaycan dili” dərslərində didaktik oyunların süjet xəttində yer alan didaktik materiallar şagirdlərin idrak fəallığını yüksəldirsə, bədii nümunələr isə onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına öz dinamik təsirini göstərmiş olur. Oyunlar analiz etməyə, məntiqi düşünməyə, araşdırmağa, hesablamaya, ölçməyə, yaratmağa, saymağa, müşahidə etməyə, müqayisə etməyə, nəticə çıxarmağa, müstəqil qərar qəbul etməyə, qrup və ya komanda şəklində işləməyə, etik dəyərləri öyrətməyə, nitqi inkişaf etdirməyə, dili öyrətməyə, yeni biliklər qazandırmağa və şagirdlərdə digər fəaliyyət növlərini inkişaf etdirməyə yönəlmiş oyunlara bölünür (Hayitmuradova, 2022).

**Nəticə**

“Azərbaycan dili” dərslərində bədii istedadın aşkara çıxarılması sistemli və məqsədyönlü metodik yanaşma tələb edir. Bu istiqamətdə tətbiq edilən effektiv üsullar təkcə istedadlı şagirdləri üzə çıxarmaqla kifayətlənmir, həm də ümumilikdə tədrisin keyfiyyətini və şagirdlərin fənnə marağını artırır. Tədris zamanı yaradıcı yazı tapşırıqları, mətni təhlil və şərh etmə bacarığı, fərdi fikir ifadəsi, şeir və hekayə yazmaq kimi fəaliyyətlər vasitəsilə bədii istedada malik olan şagirdlər müşahidə edilə və seçilə bilər. Bu istedadın zamanında və düzgün qiymətləndirilməsi uşağın potensialını reallaşdırmaq baxımından vacibdir. Xüsusilə, didaktik oyunların tətbiqi istedadlı uşaqların aşkara çıxarılması, onların potensialını erkən yaşda tanımaq və inkişaf etdirmək üçün effektiv bir metodikadır. Bu metodika, uşaqların fərqli bacarıq və qabiliyyətlərini müəyyən etməyə, onların təhsil yolunda daha güclü və məqsədyönlü irəliləmələrini təmin etməyə kömək edir. Didaktik oyunlar, şagird fəaliyyətini aktivləşdirmək və sürətləndirmək üzərində qurulub. Onlar, şagirdin yaradıcı potensialını həyata keçirmək və inkişaf etdirmək üçün praktik həllərin müəyyən edilməsi və tətbiq edilməsində əhəmiyyətli rol oynayır (Ubaydullayev & Azimov, 2020). Uşaqlara həm əyləncəli, həm də tədris məqsədli oyunlar təklif edərək onların yaradıcı düşünmə, problemləri həll etmə və sosial bacarıqlarını inkişaf etdirmək mümkündür. Didaktik oyunun müəyyən xüsusiyyətləri olmalıdır: aydın şəkildə ifadə edilmiş tədris məqsədi və uyğun tədris nəticəsi olmalıdır. Bu məqsədlər əsaslandırılmalı və tədris və ya bilik qazanma istiqamətində xarakterizə olunmalıdır. Didaktik

oyun hər zaman oyunun bitişini ifadə edən və oyun fəaliyyətinin sonunu təmsil edən aydın bir nəticəyə malik olmalıdır (Makarova, Potemkina, Chernova, & Dorozhkin, 2018). Beləliklə, "Azərbaycan dili" dərslərində didaktik oyunlardan istifadə şagirdlərin bədii istedadının üzə çıxarılmasına və yaradıcı potensiallarının inkişafına mühüm töhfə verir.

**Ədəbiyyat**

Biçer, B. (2017). Etik ve estetik değer kazanımlarının felsefe dersi öğretim materyalleri ve öğretmen görüşleri açısından değerlendirilmesi. *Dumlupınar Üniversitesi Eğitim Bilimleri Enstitüsü Dergisi, 1*(1), 87–96.

Demirel, İ. N. (2019). Sanat ve estetik değer eğitimi. In S. Z. Genç & A. Beldağ (Eds.), *Karakter ve değer eğitimi* (pp. 267–278). Pegem Akademi.

Demirtaş, Z., Çalık, M., Sarışık, S., & Sarıışık, S. (2021). Öğretmenlerin görüşlerine göre öğrenme-öğretme sürecinde eğitsel oyunlar tekniğinin kullanımı. *Recep Tayyip Erdoğan Üniversitesi Eğitim Fakültesi Dergisi (REFAD), 1*(1), 16–28.

Əliyev, İ. (2017). *Pedaqogika.* Əcəmi.

Hayitmuradova, S. (2022). Practical basis for the application of didactic game technologies in teaching pedagogical science. *The Peerian Journal, 13,* 56–59.

İbrahimov, F. N. (2012). *Pedaqogika.* Mütərcim.

İnan Kaya, G. (2018). Oyun, gelişim ve tarihsel olarak oyunun eğitimdeki yeri. *Ulusal Eğitim Akademisi Dergisi (UEAD), 2*(1), 66–78.

Makarova, N., Potemkina, M., Chernova, N., & Dorozhkin, A. (2018). A system of didactic games as a foundation of teaching history in secondary school. *SHS Web of Conferences, 50,* 01009. https://doi.org/10.1051/shsconf/20185001009

Sadıqov, F. (2009). *Pedaqogika.* Bakı: Adiloğlu.

Ubaydullayev, I., & Azimov, A. (2020). The educational value of using didactic games in primary school. *JournalNX – A Multidisciplinary Peer Reviewed Journal, 6*(9), 267–270.

***Telif ve Lisans Bildirimi***

*Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir.*